AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

ƏYANİ TƏHSİL

«CİNAYƏT PROSESİ» KAFEDRASI

# M Ü H A Z İ R Ə

Mövzu № 12. «Cinayət təqibi üzrə icraatın dayandırılması»

vaxt - 6 saat:
mühazirə -2 saat:
seminar 2 saat

təc - 2 saat

Tərtib etdi: «Cinayət prosesi» kafedrasının rəisi
polis polkovniki
**SƏYYAD AĞAYEV**

Mühazirə kafedranın iclasında müzakirə edilməklə bəyənilmişdir.

PROTOKOL № ___ «___»_________2021-ci il .

BAKI –2021

# Mövzu № 12. «Cinayət təqibi üzrə icraatın dayandırılması»

P L A N:

1. İbtidai istintaqın dayandırılmasının əsasları, şərtləri və prosessual qaydası.
2. Təqsirləndirilən şəxsin axtarışı ilə əlaqədar cinayət təqibi üzrə icraatın dayandırılması.
3. Cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsinin əsasları və prosessual qaydası.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublimkasının Konstitusiyası, Bakı,1995-ci il.
2. Azərbaycan Respublikasının CPM, Bakı, 2021
3. Azərbaycan Respublikasının CM-si, Bakı, 2021, mad. 75.
4. AR DİN-in 01 saylı 15 yanvar 2004-cü il tarixli əmri: «Azərbaycan Respublikası DİN sistemində axtarış işinin təşkili haqqında».
5. Azərbaycan Respublikası DİN-in 03.07.2001-ci il tarixli 259 saylı əmri: «Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiyası) haqqında» Azərbaycan Respublikasının Qanununun və Respublika Prezidentinin 11.06.2001-ci il tarixli 499 saylı Fərmanının elan edilməsi barədə.
7. Statistik hesabların qüvvəyə minməsi və tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Baş Prokurorluğu, Azərbaycan Respublikası DİN-in Azərbaycan Respublikası MTN, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Vergi Nazirliyinin birgə əmri, 299 saylı, 07.06.2001-ci il (5.3.dayandırılmış işlər).
8. Azərbaycan Respublikası DİN-in 15 may 200-ci il tarixli 1/403 saylı göstərişi: «Axtarışı elan edilmiş şəxslərin axtarışında istintaq və əməliyyat aparatlarının əlaqəli fəaliyyətləri haqqında».
9. C.H.Mövsümov «Cinayət prosesi», Dərslik, Bakı. 1989
10. C.H.Mövsümov «İbtidai istintaq», Dərslik, Bakı, 1973
11. С.В. Бородин «Уголовный процесс», Учебник. Москва, 1982.
12. Azərbaycan Respublikası CPM kommentariyası. Bakı 2003.
10.Q 48-001-12, 19.09.2012.Polisin nəzarəti altına vemə və ev dustaqlığıqətımkan tədbirlərənin tətbiq edilməsi qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə.
11.N.H. Bayramov.Həbs qətimkan tədbirlərinin tətbiqi ilə əlaqədar qərarların İnsan Hüquqları üzrə Avropa Məhkəməsi presedent təcrübəsinə uyğunlaşdırılması metodikası (metodiki vəsait)
Bakı- 2012

12.Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.16.07.2012

13. Cinayət prosesi fənn proqramı Bakı 2018

14. Firuzə Abbasova "Cinayət prosesi" Dərslik. Ümumi hissə.Bakı 2021"Zərdabi LTD" MMC, 2012, 416 s.

15. Cinayət prosesi. Məsələlər Toplusu N.Əliyev, S.Ağayev, A. Mikayılov, İ.Eyyubov, V. Qasımov, Bakı: Mütərcim, 2014-216 səh.

# G İ R İ Ş:

Cinayət-prosessual qanunvericiliyində qeyd olunduğu kimi, ibtidai araşdırma ittiham aktının tərtib olunması ilə və ya cinayət işinin xitamı ilə əlaqədar tərtib olunmuş qərarla sona çatır. Lakin, təcrübədə elə hallara da rast gəlinir ki, təhqiqat aparan şəxs və müstəntiq bu və ya digər səbəblər üzündən ibtidai araşdırmanı sona çatıdra bilmir. Belə ki, müstəntiq həyata keçirilməsi mümkün olan bütün istintaq hərəkətlərini aparır, qaçıb gizlənmiş təqsirləndirilən şəxsi axtarıb tapmaq və cinayət etmiş şəxsi müəyyən etmək üçün tələb edilən bütün tədbirləri görür, lakin istintaqı sona çatdıra bilmir, ona görə də, işi dayandırmağa məcbur olur. Bununla da cinayət işinin icrasına fasilə verilir. Fasilənin əldə olunması ilə qanunvericilik digər tədbirlərin də görülməsini nəzərdə tutur. Bu tədbirlərin həyata keçirilməsi müstəntiqin tiapşırığı ilə təhqiqat orqanlarına həvalə edilmişdir. Əgər cinayət işinin dayandırılmasına səbəb olan hallar öz hüquqi qüvvəsini itirərsə, onda müstəntiq öz dəlilli qərarı ilə cinayət işinin icraatını təzələyir və istintaqı davam etdirir.

İbtidai istintaq, prokurorluq və məhkəmə orqanları ədalət mühakiməsinin vəzifələrini həyata keçirərək, Azərbaycan Respublikası Prezidenntinin 22 fevral 1998-ci il tarixli «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərmanının rəhbər tutmalıdırlar. Bu Fərmana əsasən, insan hüquqlarına

hörmət, insan hüquqlarının qorunması, müasir dünyaya qovuşmağın əsas yoludur. Fərmanda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənabları Azərbaycan Respublikasının Prokurorluğuna, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinə, habelə, Ali Məhkəməyə tapşırmışdır ki, təhqiqat,  istintaq və məhkəmə orqanları tərəfindən insan hüquqları sahəsində qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsini insan hüquq və azadlıqlarının pozulması hallarının aradan qaldırılmasını təmin etsinlər, eyni zamanda azadlıqdan məhrum edilmiş və ibtidai araşdırma zamanı həbsə alınmış şəxslərin saxlanılması şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirmirlər.

*Sual 1. İbtidai istintaqın dayandırılmasının əsasları, şərtləri və prosessual qaydası.*

İbtidai istintaqın dayandırılması adı altında qanunla nizama salınan müstəntiqin, prokurorun və ya məhkəmənin qərarı ilə rəsmiləşdirilmiş cinayət işi üzrə icraatda müvəqqəti fasilə başa düşülür.

İbtidai araşdırma aparılarkən, bir sıra səbəblərdən istintaqı dayandırmaq tələbi meydana çıxır. Bir qayda olaraq, həmin səbəbləri aradan qaldırmadan istintaqı davam etdirmək və onu qurtarmaq mümkün olmur. Ona görə də, qüvvədə olan cinayət-prosessual qanunvericiliyində cinayət təqibi üzrə icraatın dayandırılması əsasları göstərilmişdir.

Qeyd etmək lazımdır ki, müstəntiq istintaqın dayandırılması qərarına gəlmək üçün aşağıdakıları nəzərə almalıdır:

1. İbtidai araşdırmanın dayandırılmasının səbəbi həqiqətən mövcud olmalı, bu təxmini xarakter daşımamalıdır;

2. Cinayət hadisəsi və cinayət tərkibinin əlamətləri şəksiz müəyyən edilməli;

3. Cinayət təqibini istisna edən hallar olmamalıdır (Azərbaycan Respublikasının CPM-si, m. 39).

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 53-cü maddəsində cinayət təqibi üzrə icraatın dayandırılmasının əsasları göstərilmişdir. Bunlar aşağıdakılardır.

1. 53.1.1. – təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmadıqda;

2. 53.1.2. – təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmadıqda;

3. 53.1.3 – təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və ya məhkəmədən gizləndikdə;

4. 53.1.4. – təqsirləndirilən şəxsin ağır xəstəliyi və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakı müvəqqəti mümkün olmadıqda;

5. 53.1.5 – cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi və ya xarici dövlət tərəfindən verilməsi məsələsi qanunla müəyyən olunmuş qaydada qoyulduqda;

6. 53.1.6 - insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı məhkəmə tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edildikdə.

Yuxarıda göstərilən hallardan hər hansı biri mövcud olduqda, cinayət təqibi üzrə icraat dayandırılmalıdır. Başqa səbəb, məsələn, iş üzrə mühüm məlumata malik olan şahidin başqa yerə getməsi, yaxud xəstələnməsi, təqsirləndirilən şəxsin uzun müddətli ezamiyyətdə olması təkrar ekspertiza aparılmasının zəruriliyi və buna oxşar digər hallar istintaqın dayandırılmasına əsas ola bilməz. Çünki, bu zaman meydana çıxan çətinliklər, ümumiyyətlə, cinayət təqibi üzrə icraatın müvəffəqiyyətlə başa çatdırılmasına mane ola bilməz. Belə hallarda söhbət cinayət təqibi üzrə icraatın dayandırılmasından deyil, buna zərurət olduqda, istintaq müddətinin uzadılmasında gedə bilər.

Qeyəd etdiyimiz əsasların hər birinə ayrı-ayrılıqda ətraflı baxaq:

1. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmadıqda.

Cinayət etmiş şəxs müəyyən olunmadıqda, cinayət işi üzrə icraat o zaman dayandırıla bilər ki, müstəntiq tərəfindən bütün istintaq hərəkətləri yerinə yetirilsin, lakin cinayət törətməkdə təqsiri olan şəxs müəyyən olunmasın. Belə hallarda işə aid icraat qanunda müəyyən edilmiş cinayət təqibi üzrə icraat müddəti keçdikdən sonra dayandırıla bilər.

Cinayət təqibi üzrə icraatın dayandırılması qaydası onunla izah olunur ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53-cü maddəsində göstərilən hallardan hər hansı biri mövcud olduqda, müstəntiq cinayət təqibi üzrə icraatın dayandırılması barədə motivli qərar çıxarır. Bu qərarda işin mahiyyəti və istintaqın dayandırılması əsasları göstərilir və həmin qərarın surəti prokurora göndərilir. Əgər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilirsə, müstəntiq bu haqda xüsusi qərar çıxarır və həmin qərar məhkəmə tərəfindən təsdiq edilir. Əgər cinayət işi üzrə iki və ya daha çox təqsirləndirilən şəxs cəlb edilmişsə və işin dayandırılması üçün əsaslar təqsirləndirilən şəxslərin hamısına aid deyildirsə, müstəntiq yuxarıda göstiərilən əsasların aid olduğu təqsirləndirilən şəxslərin işini ayrırır və onlar barəsində ibtidai araşdırmanı aparır. Qalan təqsirləndirilən şəxslər barəsində isə istintaqı müəyyən edilmiş ümumi qaydada davam etdirir.

2. Təqsirləndirilən şəxs istintaqdan və ya məhkəmədən qaçıb gizləndikdə və ya sair səbəblərə görə onun olduğu yer müəyyən edilmədikdə, belə hallarda işə aid icraat qanunla müəyyən edilmiş ibtidai araşdırma müddəti keçdikdən sonra dayandırıla bilər. Müstəntiq ibtidai araşdırmanın dayandırılmasına qədər təqsirləndirilən şəxsin iştirakı olmadan həyata keçirilməsi mümkün olan bütün istintaq hərəkətlərini aparmalı, qaçıb gizlənmiş təqsirləndirilən şəxsi axtarıb tapmaq və cinayət etmiş şəxsi müəyyən etmək üçün tələb edilən bütün tədbirləri görməlidir.

Yuxarıda göstərdiyimiz əsas olduqda, müstəntiq şəxsi təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar çıxardıqdan sonra, ibtidai araşdırmanın dayandırılması barədə məsələni həll etməlidir.

İstintaqdan qaçıb gizlənmiş, yaxud ağır xəstələnmiş şəxsələr haqqında ibtidai araşdırma təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar çıxarılıb, lakin təqsirlənqdirilən şəxsə elan edilmədiyi hallarda da dayandırıla bilər.

Əgər ibtidai araşdırma təqsirləndirilən şəxs istintaqdan qaçıb gizlənməsi, yaxud onun olduğu yerin məlum olmaması ilə əlaqədar olaraq dayandırılarsa, müstəntiq təqsirləndirilən şəxsin tapılmasını təmin etmək üçün qanunla müəyyən edilmiş bütün tədbirləri görməlidir. Bu zaman, o, axtarış elan etməli və bunu təhqiqat orqanlarına tapşırmalıdır.

3. Təqsirləndirilən şəxs psixi və ya ağır xəstəliyə tutulmuş olduqda və bu həkim tərəfindən təsdiq edildikdə, ibtidai araşdırma təqsirləndirilən şəxs psixi və ya ağır xəstəliyə tutulduqda və bu onun müvəqqəti olaraq iş üzrə icraata iştirak etməsinə imkan vermədikdə dayandırıla bilər. Bu zaman təqsirləndirilən şəxsin xəstəliyi məhkəmə tibbi eksperti və ya psixiatriya eksperti tərəfindən təsdiq edilməlidir. Belə hallarda iş üzrə ibtidai araşdırma təqsirləndirilən şəxs sağalana qədər dayandırılır.

Qeyd etdiyimiz əsas olduqda da müstəntiq şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarını çıxardıqdan sonra, ibtidai araşdırmanın dayandırılması barədə məsələni həll etməlidir.

Lakin, bir şeyi də qeyd etməliyik ki, təqsirləndirilən şəxs psixi və ya ağır xəstəliyə tutulmuş olduqda və bu həkim tərəfindən təsdiq edildikdə, icraat ibtidai araşdırma müddəti qurtaranadək dayandırıla bilər.

Beləliklə, cinayət təqibi üzrə icraatın dayandırılma əsasları qanunvericilikdə göstərildiyi kimi aşağıdakılardır:

1. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmadıqda.

2. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmadıqda.

3. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və ya məhkəmədən gizldəndikdə.

4. təqsirləndirilən şəxsin ağır xəstəliyi və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakı mümkün olmadıqda.

5. cinayət qanun ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edildməsi və ya xarici dövlət tərəfindən verilməsi məsələsi qanunla müəyyən olunmuş qaydada qoyulduqda.

Yuxarıda göstərilən əsaslardan hər hansı biri mövcud olduqda, istintaq aparan şəxs tərəfindən ibtidai araşdırmanın icraatı müvafiq qərarla dayandırılır.

## Sual 2. Təqsirləndirilən şəxsin axtarışı ilə əlaqədar cinayət təqibi üzrə icraatın dayandırılması.

Təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs gizləndikdə və onun olduğu yer müəyyən olunmadığı əsasa görə cinayət işi üzrə ibtidai araşdırma müvəqqəti olaraq dayandırılır, yəni, fasilə yaranır.Qanunverici göstərilən əsası Azərbaycan Respublikası CPM-nin 53-cü maddəsinin 53.1.2., 53.1.3.-cü bəndlərində əks etdirmişdir. Bu bəndlərdə bilavasitə iki halın olmasını xüsusi olaraq nəzərdə tutur:

- təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmadıqda:
- təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və ya məhkəmədən gizləndikdə:

Təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan qaçıb gizləndikdə və onun törətdiyi cinayətdə təqsirli olması sübuta yetmişsə, müstəntiq həmin şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar çıxarmalıdır. Zərurət yarandıqda müstəntiq həmin təqsirləndirilən şəxs barəsində qətimkan tədbirinin seçilməsi haqqında da qərar çıxarır. Bu qərarlarla birlikdə müstəntiq təqsirləndirilən şəxsin axtarışının elan edilməsi haqqında qərar çıxarır və təqsirləndirilən şəxsin axtarışını və onun istintaq orqanlarına gətirilməsini cinayət-axtarış xidmətinə tapşırır. Bu məsələni həll etmək üçün müstəntiq cinayət-axtarış aparatına yuxarıda göstərilən qərarların surətini göndərir:

1. axtarış elan edilməsi haqqında qərar;
2. təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar;
3. qətimkan tədbirinin seçilməsi haqqında qərar:

Yadda saxlamaq lazımdır ki, təqsirləndirilən şəxsin axtarışının elan edilməsi haqqında qərar ibtidai araşdırmanın hər hansı bir mərhələsində çıxarıla bilər.

Azərbaycan Respublikası CPM-nin 278-ci maddəsinin 1 və 2-ci hissəsi ilə dayandırılmış işlər üzrə müstəntiqin fəaliyyəti müxtəlif xarakterli olur. Bu fəaliyyət xarakter etibarı ilə həm axtarış, həm də təşkilati tədbirləri nəzərdə tutur.

Axtarış tədbirlərinə müstəntiqin axtarış elan edilməsi haqqında çıxardığı qərarın təhqiqat orqanlarına icra etməsi ilə yaranan göstərişlərdən ibarətdir. Axtarış yerli və ya ümumrespublika xarakterli ola bilər. Axtarışın hansı istiqamətdə aparılması təhqiqat orqanının öz şəxsi mülahizəsindən asılıdır. Bildiyiniz kimi, ilk əvvəl yerli axtarış tədbirləri görülür, bu heç bir nəticə verməzsə, ümumrespublika səviyyəli axtarış elan edilir.

Artıq qeyd etdiyimiz kimi, dayandırılmış cinayət işi üzrə axtarış elan olunarsa, bu barədə müstəntiq xüsusi qərar çıxarır. Əgər eyni vaxtda həm axtarış, həm də cinayət işi dayandırılarsa, belə olan halda müstəntiq bu işi bir qərarla həll edir. İbtidai araşdırmanın dayandırılması və axtarışın elan edilməsi haqqında çıxarılmış qərarın bir nüsxəsini müstəntiq cinayət işinə tikir, ikinci nüsxəsini isə təhqiqat orqanlarına göndərir. Bu qərar təhqiqat orqanlarına hüquqi əsas verir ki, axtarış tədbirlərini həyata keçirsinlər.

Yuxarıda göstərilən qərarla birlikdə təhqiqat orqanlarına aşağıdakılar da təqdim olunur:

1. qətimkan tədbirlərinin seçilməsi haqqında qərar;

2. gizlənmiş təqsirləndirilən şəxsin şəxsiyyəti haqqında məlumatlardan ibarət olan arayış.

Əgər təqsirləndirilən şəxs haqqında həbsə alma növündə qətimkan tədbiri seçilmişsə, onda həmin qərar məhkəmə tərəfindən mütləq təsdiq edilməlir.

Arayışda təqsirləndirilən şəxsin axtarışının səmərəli həyata keçirilməsi üçün bütün məlumatlar qeyd olunur.

Təqsirləndirilən şəxsin adı, soyadı, atasının adı, anadan olduğu gün, ay və il, təqsirləndirilən şəxsin axırıncı iş və yaşayış yeri, hansı sənət və ixtisas sahibi olması haqqında, hərbi mükəlləfiyyətə münasibəti və son dövrlərdə hərbi qeydiyyatda olub-olmaması, məhkumluğu barədə məlumatlar. Əgər təqsirləndirilən şəxs iş və yaşayış yerini dəyişibsə, onda arayışda təqsirləndirilən şəxsin köhnə iş və yaşayış yeri hökmən göstərilməlidir. Bütün bunlarla yanaşı, arayışda təqsirləndirilən şəxsin yaxın qohumlarının məlumatları da göstərilir.

Son dövrdə təqsirləndirilən şəxs bu qohumlarının hansıları ilə yaxın əlaqə saxlayıb, təqsirləndirilən şəxsin əlamətləri və üstündə hansı əşyalar və paltar olması barədə məlumatlar da göstərilir. Əgər təqsirləndirilən şəxsin fotoşəkili vardırsa, şəklin surəti də arayışa əlavə edilir.

Təhqiqat orqanına axtarış haqqında göstəriş verilməsi, müstəntiqi heç də bu fəaliyyətdən kənarlaşdırmır. Müstəntiq paralel olaraq özü də sərbəst şəkildə axtarış tədbirlərini davam etdirir.

Müstəntiqin axtarış fəaliyyəti həm axtarış elan olunana qədər, həm də axtarış elan olunduqdan sonra davam edir. İbtidai araşdırmanı dayandırdıqdan sonra, axtarış elan etdikdən sonra, müstəntiq özü şəxsən təqsirləndirilən şəxsin əlaqələrini öyrənir, onun ətraf alətini nəzarət altında saxlayır, müxtəlif idarə və təşkilatlara sorğu göndərir, ətraf rayon və şəhərlərin təhqiqat orqanlarına tapşırıqlar göndərir.

Axtarışı həyata keçirən müstəntiq təqsirləndirilən şəxsin ehtimal olunan iş və yaşayış yeri üzrə olmasını ünvanlar bürosundan öyrənir: təqsirləndirilən şəxs başqa cinayət ekməkdə həbsdə saxlanılırma və ya tibbi müəssisədə yerləşdirilməyib ki, təqsirləndirilən şəxs daimi və ya müvəqqəti hərbi xidmətdə deyil ki, nəhayət, meyitxanalarda və tanınmış meyitlər arasında olmasını yoxlayır.

Əgər axtarış tədbirləri həyata keçirilərkən, elə hallar meydana çıxarsa ki, bunları yalnız istintaq hərəkətlərinin aparılması ilə aradan qaldırılması mümkündürsə, belə olan halda müstəntiq öz qərarı ilə cinayət işinin istintaqını təzələyir. Təqsirləndirilən şəxs qohumları ilə post-teleqraf əlaqəsi saxlaması barədə məlumatı olan müstəntiqin ixtiyarı vardır ki, təqsirləndirilən şəxsin qohumlarının post-teleqraf yazışmaları üzərinə həbs qoysun. (Azərbaycan Respublikasının CPM-si, m.255-258).

Müstəntiqin axtarışla əlaqədar işi bütün hallarda axtarışı bilavasitə həyata keçirən təhqiqat orqanı ilə əlaqəli şəkildə qurulmasına xidmət edir. Vaxtında əlaqəli şəkildə həyata keçirilən axtarış işi öz müsbət nəticəsini də göstərimiş olur.

a) təqsirləndirilən şəxs qitsmində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmaqda, cinayət təqibi üzrə icraatın dayandırılması qaydası.

Azərbaycan Respublikası CPM-nin 53.1.2-ci maddəsinə bir misal göstərək. 20 aprel 1997-ci ildə Yusifov vətəndaş İsmayılova məxsus olan «Jiquli» markalı avtomobili qaçırmışdır. Bir gün sonra qaçırılmış avtomobil şosse yolunun yanındakı dərədə əzilmiş vəziyyətdə qaçırılan yerdən 18 km. Aralı məsafədə tapılmışdır. Yusifovun axtarışı üzrə bütün tədbirlərin aparılmasına baxmayaraq, iki ay ərzində onun olduğu yeri müəyyən etmək mümkün olmamışdır. Belə olan halda müstəntiq təqsirləndirilən şəxsin axtarışı barədə bütün tədbirlərin həyata keçirilməsinə baxmayaraq, onun olduğu yeri aşkar edə bilmirsə, Azərbaycan Respublikası CPM-nin 218-ci maddəsində göstərilən ibtidai araşdırma müddətini nəzərə alır və cinayət işinin icraatını Azərbaycan Respublikası CPM-nin 53.1.2-ci maddəsində göstərilən əsasa görə dayandırır. Paralel olaraq, müstəntiq Yusifov barəsində təqsirləndrilən şəxs qismində gəlb edilməsi haqqında qərarı çıxarır. Baxmayaraq ki, bu qərarı ona elan edə bilmir, lakin, qanunvericilik buna icazə verir. Həbs qətimkan tədbiri

seçilməsi barədə qərar çıxarıb məhkəmə tərəfindən təsdiq etdirir və Yusifov barədə axtarış elan edib icrasını təhqiqat orqanlarına tapşırır.

İş üzrə icraat müxtəlif kateqoriyalı cinayətlərin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb edilməsi müddətləri keçdikdən sonra dayandırılır. Əgər təqsirləndirilən şəxs qaçıb gizlənmişsə, müddətin axması dayandırılır. Əgər sair səbəblərə görə təqsirləndirilən şəxsin olduğu yer müəyyən edilməkdə, müddətin axımı dayandırılır.

Cinayət məsuliyyətinə cəlb edilmə müddətləri keçdikdə, Cinayət Məcəlləsinin 75-ci maddəsində nəzərdə tutulan digər şərtlərə riayət edildikdə, dayandırılmış cinayət işinə xitam verilir.

b) təqsirləndirilən şəxsin ağır xəstəliyi və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakı müvəqqəti mümkün olmadıqda, ibtidai araşdırmanın dayandırılması.

Qanunverici təqsirləndirilən şəxsin xəstəliyi halları cinayət-prosessual Məcəlləsinin 53.3.4-cü maddəsinqdə izah etmişdir: «Məhkəmə-tibb eksperti və ya psixiatriya eksperti tərəfindən təqsirləndirilən şəxsin müstəntiqin yanına gəlməsinə imkan verməyən ağır və uzun sürən, lakin müalicə oluna bilən xəstəliyə tutulması müəyyən edildikdə, cinayət işi üzrə ibtidai araşdırma təqsirləndirilən şəxs sağalanadək dayandırılır».

Belə halda təqsirləndirilən şəxsin xəstəliyi barədə tibbi müəssisəsinin müvafin arayışı və ya məhkəmə-psixiatrik, məhkəmə-tibb ekspertizasının rəyi (qərarı) olmalıdır. Nəzərə almaq lazımdır ki, təqsirləndirilən şəxsin xəstəliyi öz xarakterinə görə – 1. ağır, 2. müvəqqəti, 3. sağalan olmalıdır.

Əgər şəxs cinayəti törətdikdə, ağlı başında olmamışsa, (özü-özünü idarə etmək iqtidarında olmamışdır) və ya cinayəti törətdikdən sonra müalicə oluna bilməyən ruhi xəstəliyə tutulmuşsa, belə halda icraat

dayandırılmır, cinayət işi isə Azərbaycan Respublikası CPM-nin 55 və 56-cı fəslində göstərilmiş qaydada davam etdirilir.

Cinayət etmiş şəxs müəyyən olunmadıqda, ibtidai araşdırma o zaman dayandırılır ki, müsmtəntiq tərəfindən bütün istintaq hərəkətləri yerinə yetirilib, lakin cinayəti törətmiş şəxsi aşkar etmək mümkün olmamışdır.

Qanunverici nəzərdə tutur ki, belə hal mövcud olduqda, müstəntiq həm bilavasitə, həm də təhqiqat orqanları vasitəsilə cinayəti törətmiş şəxsin müəyyən olunması və onun cinayət məsuliyyətinə cəlb edilməsi üçün təlbirlər görməlidir. Lakin, bir halı da nəzərdən qaçırmaq olmaz ki, əgər cinayət törətmiş şəxs haqqında müstəntiq onun axtarılıb tapılması haqqında bilavasitə göstəriş verməməişdirsə, təhhiqat orqanları heç bir iş görməməlidir. Artıq törədilmiş cinayət faktı barədə təhqiqat orqanlarında kifayət qədər məlumat var və bu orqanlar özləri şəxsən cinayətkarın müəyyən edilməsi üçün təşəbbüs göstərmişdirlər.

Müstəntiq isə öx növbəsində cinayət işini araşdırmalı, şahid ifadələrini bir daha oxumalı, iş üzrə fərziyyələr irəli sürüb, onları analiz etməli, aşkar etdiyi boşluqları plan şəklində tərtib edib icrasına nəzarət etməlidir.

Cinayət törətmiş şəxsin müəyyən edilmədiyinə görə dayandırılmış cinayət işləri prokurorun xüsusi nəzarəti alıtnda olmalıdır. Prokurorun borcudur ki, o, hər bir iş ilə şəxsən tanış olsun, cinayət-prosessual normalarının tətbiqinin düzgünlüyünü yoxlasın və ibtidai araşdırmanın dayandırılmasına əsas olmuş halları dəqiqliyi ilə araşdırsın. Əgər prokuror ibtidai araşdırmanın tam aparılması inamına gələrsə, işin dayandırılması haqqında çıxarılmış qərarı ləğv edir və işin icraatını təzələyir.

Beləliklə, Azərbaycan Respublikası CPM-nin 53.1.4-cü maddəsinə əyani bir misal göstərək. Zeynalov bıçaqla Əkbərovun sol çiyin nahiyəsinə bir neçə zərbə endirərək, ona ağır dərəcəli bədən xəsarəti yetirmişdir. Dərhal Zeynalov Azərbaycan Respublikası CPM-nin 90 və

1458-ci maddələrində nəzərdə tutulan qaydada tutulub şübhəli şəxs kimi saxlanılmışdır. Eyni zamanda, fakt üzrə Azərbaycan Respublikası CM-nin 126.1-ci maddəsi ilə cinayət işinə başlanılmışdır. Şübhəli şəxs kimi dindirilən zaman Zeynalov başının zədələnməsindən sonra son illər tez-tez başının ağrısından şikayət etmişdir. Müstəntiq Zeynalovu məhkəmə-psixiatriya ekspertizasına göndərmişdir. Ekspert komissiyası nəticəyə gəlmişdir ki, Zeynalovda hal-hazırda ruhi fəaliyyətinin müvəqqəti pozulması halları müşahidə olunur. Lakin Əkbərova bədən xəsarəti yetirən zaman Zeynalovun anlaqsız vəziyyətdə olmasını hesab etməyə əsaslar yoxdur. Bundan sonra Zeynalov müalicə olunmaq üçün psixiatriya xəstəxanasına yerləşdirilmişdir. İş üzrə ibtidai araşdırma müddətinin qurtarmasına 15 gün qalmış Zeynalovun təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar çıxarılmışdır və ibtidai araşdırma Azərbaycan Respublikası CPM-nin 53.1.4-cü maddəsinə əsasən dayandırılmışdır.

İki gündən sonra psixiatriya xəstəxanasından Zeynalovun qaçması haqqında məlumat daxil olmuşdur. Görülmüş axtarış tədbirləri nəticəsində Zeynalov tapılmışdır. Müstəntiq bu məlumatı alan kimi cinayət işi üzrə ibtidai araşdırmanı təzələyib, Zeynalovun axtarışının elan edilməsi haqqında qərar çıxarmıq və axtarışın aparılmasını polis idarəsinin cinayət-axtarış xidmətinə həvalə etmişdir.

Təqsirləndirilən şəxsin xəstəliyi hallarında ibtidai araşdırmanın dayandırılması Azərbaycan Respublikası CPM-nin 53.1.4-cü maddəsində göstərilmişdir. Həmin maddədə deyilir: «Məhkəmə-tibb eksperti və ya psixiatriya eksperti tərəfindən təqsirləndlirilən şəxs müstəntiqin yanına gəlməsinə imkan verməyən ağır və uzun sürən, lakin müalicə oluna bilən xəstəliyə tutulması müəyyən edildikdə, cinayət işi üzrə ibtidai araşdırma təqsirləndirilən şəxs sağalanadək dayandırılır».

Belə olan halda müstəntiq həm bilavasitə, həm də təhqiqat orqanları vasitəsilə cinayət törətmiş şəxsin müəyyən olunması və onun cinayət məsuliyyətinə cəlb edilməsi üçün bütün tədbiləri görür.

### *SUAL 3.Dayandırılmış cinayət işi üzrə icraatın təzələnməsinin əsasları və prosessual qaydası.*

Azərbaycan Respublikası CPM-nin 53-cü maddəsində göstərilən hallardan hər hansı biri mövcud olduqda, müstəntiq ibtidai araşdırmanın dayandırılması barədə Azərbaycan Respublikası CPM-nin 277-ci maddəsinə əsasən motivli qərar çıxarır. Bu qərarda işin mahiyyəti və istintaqın dayandırılması əsasları göstərilir və həmin qərarın surəti 24 saat müddəti ərzində prokurora göstərilir. Əgər təqsirləndirilən şəxs haqqında həbsə almaq barəsində qətimkan tədbiri seçilirsə, müstəntiq bu haqda xüsusi qərar çıxarır və həmin qərar məhkəmə tərəfindən təsdiq edilir.

Əgər cinayət işi üzrə iki və ya daha çox təqsirləndirilən şəxs cəlb edilmişsə və işin dayandırılması üçün əsaslar təqsirləndirilən şəxslərin hamısına aid deyildirsə, müstəntiq yuxarıda göstərilən əsasların aid olduğu təqsirləndirilən şəxslərin işini ayırır və onlar barəsində ibtidai araşdırmanı dayandırır.

Azərbaycan Respublikası CPM-nin 279-cu maddəsinə müvafiq olaraq təqsirləndirilən şəxs tapıldıqda və ya sağaldıqda, yaxud cinayəti etmiş şəxs müəyyən edildikdə, müstəntiqin qərarı ilə cinayət işi üzrə ibtidai araşdırma təzələnir.

Cinayət işi üzrə icraatın təzələnməsi haqqında olan qərarda hansı hallarla əlaqədar işin təzələnməsi ətraflı qeyd edilir və həmin qərarın surəti prokurora göndərilir. Eyni zamanda qərarda cinayət hadisəsinin mahiyyəti, nə vaxt və nə əsasa görə dayandırılması göstərilir. Daha sonra isə iş üzrə ibtidai araşdırmanın təzələnməsinin səbəbi göstərilməlidir.

Müstəntiq tərəfindən cinayət işinin təzələnməsi haqqında çıxarılmış qərar 3 hissədən ibarət olur: giriş, təsviri və  nəticəvi.

Qərarın giriş və təsviri hissələrində baş vermiş cinayətin mahiyyəti, işin dayandırılması əsasları və motivləri, dayandırılma vaxtı. Sonra isə dayandırılma əsaslarının qüvvədən düşməsi göstərilir. Bu hissədə istintaq hərəkətlərinin qarşısında duran ümumi vəzifələr göstərilməlidir.

İstintaqın sona çatdırılması ilə əlaqədar kompleks istintaq hərəkətlərinin aparılması vaxtı da göstərilir.

Nəticəvi hissədə isə ibtidai araşdırmanın təzələnməsi haqqında müstəntiqin gəldiyi nəticə, işi öz icraatına qəbul etməsi və qərarın surətinin prokurora göndərilməsi qeyd  olunur.

Azərbğaycan Respublikası CPM-nin 53.1.1.-ci maddəsi ilə dayandırılmış cinayət işi təzələndikdə, əlavə ibtidai araşdırmanın müddəti istintaqa nəzarət edən prokuror tərəifndən bir ay müddətinə uzadılır.

Dayandırılmış cinayət işi üzrə istintaq təzələndikdə, ibtidai araşdırma ümumi qayda üzrə aparılır.

Azərbaycan Respublikası CPM-nin 279-cu maddəsinə əsasən, cinayət işi üzrə dayandırılmış icraatın təzələnməsi göstərilmişdir.

Azərbaycan Respublikası CPM-nin 279-cu maddəsinə sasən,

- cinayət işi üzrə dayandırılmış icraat müstəntiqin qərarı ilə aşağıdakı hallarda təzələnir:

1. cinayət işi üzrə icraatın dayandırılması üçün CPM-nin 53.1-ci maddəsində nəzərdə tutulmuş hallar aradan qalxdıqda.

2. təqsirləndirilən şəxsin iştirakı olmadan aparılması mümkün olan prosessual hərəkətlərin yerinə yetirilməsi zərurəti olduqda.

Cinayət işi üzrə icraatın təzələnməsi barədə müstəntiq qərarın çıxardığı andan 24 saatdan gec olmayaraq, onun surəti ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

Cinayət işi üzrə icraat həmçinin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmə nəzarətini həyata

keçirən məhkəmənin qərarına əsasən müstəntiqin iş üzrə icraatın dayandırılması haqqında qərarı ləğv edilməklə təzələnə bilər. Müstəntiq cinayət işi üzrə icraatın təzələnməsi barədə təqsirləndirilən şəxs və müdafiəsiyə, habelə zərərçəkmiş şəxsə, onun nümayəndəsinə, mülki cavabdehə və ya onların nümayəndələrinə məlumat verməlidir.

Cinayət təqibi üzrə icraat müstəntiqin və ya təhqiqatın aparılması ilə məşğul olan şəxsin qərarı ilə təzələnir. İşi təzələməyə Azərbaycan Respublikası CPM-nin 279-cu maddəsində göstərilən hallar əsas verir. Təzələnmiş cinayət işi üzrə icraat ümumi qaydada aparılır. İstintaqı təzələnmiş cinayət işlərinə nəzarəti prokuror həyata keçirir. Prokuror eynilə təzələnmiş işlər üzrə istintaqın müddətini də müəyyən edir.

Cinayət-prosessual qanunvericiliyi Azərbaycan Respublikası CM-nin 75-ci maddəsi ilə müəyyən edilmiş müddətlər keçənədək ibtidai araşdırmanın dayandırılması əsasları qüvvədən düşməzsə, iş üzrə icraata xitam verilməsini də nəzərdə tutur (Azərbaycan Respublikası CPM-nin 279 maddəsi).

# N Ə T İ C Ə:

Beləliklə, 15 saylı mövzu üzrə araşdırılan suallardan belə nəticəyə gəlirik ki, cinayət təqibi üzrə icraatın dayandırılması zamanı fasilə əldə olunur. Fasilə zamanı dayandırılmış cinayət işi üzrə müstəntiqin göstərişi ilə təhqiqat orqanları  fəaliyyət göstərirlər. Fəaliyyətin xarakteri isə cinayət işinin hansı əsaslara görə dayandırılmasından asılıdır.

Azərbaycan Respublikasının CPM-nin 53-cü  maddəsində ibtidai araşdırmanın dayandırılma əsasları  göstərilmişdir. Qanunvericilik  bu əsaslarla onu demək istəyir ki, yalnız qanunda nəzərdə tutulmuş hallar yaranarsa, ibtidai araşdırma müstəntiqin qərarı ilə dayandırılır. Dayandırılmış cinayət işləri üzrə sonrakı fəaliyyət də qanunda nəzərdə tutulmuşdur. Belə ki, dayandırılmış hər bir cinayət işi üzrə nəzarəti prokuror həyata keçirir, cinayət törətmiş şəxsin aşkara çıxarılması məqsədi ilə həyata keçirilən tədbirlərə bilavasitə nəzarət edir. Əgər dayandırılmış cinayət işinin hüquqi əsasları aradan qalxarsa, belə olan halda müstəntiqin qərarı ilə dayandırılmış cinayət işinin icraatını təzələyir və ibtidai araşdırmanı ümumi qaydada aparır.

Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli «Polis haqqında» Qanuna əsasən, polis vəzifələrinin yerinə yetirilməsində dövldət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ayrı-ayrı şəxslərin iştirakını zəruri hesab edir.

«Polis  haqqında» Qanunun 10-cu maddəsinə əsasən:

1. dövlət hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərməlidir.

2. hər bir şəxs polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərə bilər. Polis üzərinə düşən vəzifələri yerinə yetirmək üçün heç kəsi əməkdaşlığa məcbur edə bilməz.

3. hazırlanan, törədilən və ya törədilmiş cinayət barəsində xəbəri olan hər bir şəxs bu barədə polisə məlumat verməlidir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda bu məlumatların verilməməsi cinayət məsuliyyətinə səbəb olur.